*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 334-346*

https://doi.org/10.62837/2025.2.334

**NEYMƏT RÜSTƏMLİ,**
*Ağdam Ağdam Dövlət Sosial-İqtisadi Kollec Publik Hüquqi Şəxsin direktoru.*
*E-mail: turksoylu@mail.ru*
*Orcid: https://orcid.org/0009-0004-7834-1929*
*Ünvan:* ***Ağdam, Azərbaycan***

# QASIM BƏY ZAKİRİN YARADICILIĞINDA QARABAĞ MƏFKURƏSİ

## XÜLASƏ

Bu məqalədə XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Qasım bəy Zakirin yaradıcılığında Qarabağ məfkurəsinin formalaşması və onun ədəbi irsində əks olunması təhlil edilir. Zakirin poeziyası milli kimlik, vətənpərvərlik və ictimai tənqid motivləri ilə zəngin olub, Qarabağın azadlıq və milli dirçəliş ideyalarının ifadəsi kimi çıxış edir. Məqalədə Zakirin satirik və lirik şeirləri təhlil edilir və onların XIX əsrin siyasi hadisələri fonunda şairin ədəbi mövqeyini necə formalaşdırdığı araşdırılır. Şairin poeziyasında Qarabağın yalnız coğrafi məkan olmadığını, həm də ictimai ədalət uğrunda mübarizənin simvolu kimi təqdim olunur. O, əsərlərində feodal istismarı, məmur özbaşınalığı və sosial haqsızlıqları sərt tənqid edir. Tədqiqat tarixi-konseptual yanaşma və məzmun təhlili metodlarından istifadə etməklə, Zakirin əsərlərində Qarabağ məfkurəsinin ideoloji və bədii ifadəsini araşdırır. Nəticədə müəyyən edilir ki, Zakirin yaradıcılığı XIX əsr Azərbaycan cəmiyyətində milli şüurun formalaşmasına və Qarabağ ideologiyasının möhkəmlənməsinə əhəmiyyətli töhfə vermişdir. Onun ədəbi irsi müasir dövrdə də Qarabağın mədəni və ideoloji kimliyinin qorunması baxımından aktuallığını saxlayır.

**Açar sözlər:** Qasım bəy Zakir, Qarabağ məfkurəsi, XIX əsr Azərbaycan ədəbiyyatı, milli kimlik, vətənpərvərlik, satirik poeziya, ictimai tənqid.

**NEYMAT RUSTAMLI, Master's Student.**

## THE IDEA OF KARABAKH IN THE WORKS OF QASIM BEY ZAKIR

## ABSTRAKT

This article analyzes the formation of the Karabakh ideology in the works of Qasım bəy Zakir, a prominent representative of 19th-century Azerbaijani literature, and its reflection in his literary heritage. Zakir's poetry is rich in motifs of national identity, patriotism, and social critique, and serves as an expression of the ideas of freedom and national revival of Karabakh. The article examines Zakir's satirical and lyrical poems, as well as his epic works, exploring how they shape the poet's literary stance against the backdrop of the political events of the 19th century. In his poetry, Karabakh is presented not only as a geographical space but also as a symbol of the struggle for social justice. He harshly critiques feudal exploitation, bureaucratic ar-

bitrariness, and social injustices in his works. Using a historical-conceptual approach and content analysis methods, the article investigates the ideological and artistic expression of the Karabakh ideology in Zakir's works. The research concludes that Zakir's creative legacy significantly contributed to the formation of national consciousness in 19th-century Azerbaijani society and the strengthening of Karabakh ideology. His literary heritage remains relevant today in terms of preserving Karabakh's cultural and ideological identity.

**Keywords:** Qasım bəy Zakir, Karabakh ideology, 19th-century Azerbaijani literature, national identity, patriotism, satirical poetry, social critique.

**НЕЙМАТ РЮСТЕМЛИ**

## ИДЕЯ КАРАБАХА В ТВОРЧЕСТВЕ КАСЫМА БЕКА ЗАКИРА

## АННОТАЦИЯ

В данной статье анализируется формирование карабахской идеологии в творчестве выдающегося представителя азербайджанской литературы XIX века Касыма бека Закира и её отражение в его литературном наследии. Поэзия Закира богата мотивами национальной идентичности, патриотизма и социальной критики, выступая выражением идей свободы и национального возрождения Карабаха. В статье рассматриваются его сатирические и лирические стихи, исследуется, как на фоне политических событий XIX века формировалась литературная позиция поэта. В его поэзии Карабах представлен не только как географическое пространство, но и как символ борьбы за социальную справедливость. В своих произведениях он резко критикует феодальную эксплуатацию, чиновничий произвол и социальное неравенство.

Исследование основано на историко-концептуальном подходе и методе контент-анализа, изучая идеологическое и художественное выражение карабахской идеологии в произведениях Закира. В результате определяется, что творчество Закира сыграло важную роль в формировании национального самосознания в азербайджанском обществе XIX века и в укреплении карабахской идеологии. Его литературное наследие остаётся актуальным и в современную эпоху с точки зрения сохранения культурной и идеологической идентичности Карабаха.

**Ключевые слова:** Касым бек Закир, карабахская идеология, азербайджанская литература XIX века, национальная идентичность, патриотизм, сатирическая поэзия, социальная критика.

**Giriş.**

Qasım bəy Zakir (1784–1857) XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olmaqla, dövrünün ictimai-siyasi və mədəni hadisələrini öz yaradıcılığında dərin fəlsəfi və satirik çalarlarla əks etdirmişdir (Sultanlı vb, 1960). Onun poeziyası təkcə bədii ifadə vasitələri ilə deyil, həm də milli kimlik, vətənpər-

vərlik və Qarabağ məfkurəsinin formalaşmasında oynadığı mühüm rol ilə seçilir. Zakirin əsərlərində Qarabağ təkcə coğrafi məkan kimi deyil, həm də azadlıq, milli dirçəliş və ictimai ədalət ideallarının rəmzi kimi təqdim olunur. Müəllifin yaradıcılığı xüsusilə XIX əsrin ilk yarısında Qarabağda baş verən siyasi çəkişmələr, sosial təbəqələşmə və Rusiya-İran müharibələrinin yaratdığı mürəkkəb tarixi kontekstdə formalaşmışdır (Fərəcov,2014). Onun satirik şeirləri, ictimai problemlərə yönəlmiş tənqidi fikirləri və vətən sevgisini təcəssüm etdirən poetik nümunələri Qarabağın milli məfkurə tarixində əhəmiyyətli yer tutur. Zakirin yaradıcılığı, eyni zamanda, Qarabağ ədəbi məktəbinin inkişafında və regionun mənəvi dəyərlərinin qorunmasında mühüm rol oynamışdır (Hüseynov, 1984).

Bu məqalədə Qasım bəy Zakirin əsərlərində Qarabağ məfkurəsinin əks olunma xüsusiyyətləri təhlil ediləcək, onun poeziyasındakı milli ruh, ictimai tənqid və vətən sevgisi kimi motivlər üzərində dayanılacaqdır. Bununla yanaşı, Zakirin Qarabağ ideyalarını necə ifadə etdiyi, həmin ideyaların dövrünün ictimai-siyasi prosesləri ilə necə əlaqələndiyi və onun bu baxımdan Azərbaycan ədəbiyyatında tutduğu yer müzakirə ediləcəkdir.

**Problem:**

Qasım bəy Zakirin yaradıcılığında Qarabağ məfkurəsinin necə formalaşdığı və ədəbi əsərlərində bu məfkurənin hansı ideya və motivlərlə ifadə edildiyi tam sistemli şəkildə araşdırılmayıb.

**Tədqiqatın məqsədi:**

Bu tədqiqatın məqsədi Qasım bəy Zakirin yaradıcılığında Qarabağ məfkurəsinin bədii ifadəsini araşdırmaq, onun əsərlərində milli kimlik, vətənpərvərlik və Qarabağ ideyasının hansı poetik vasitələrlə əks olunduğunu müəyyənləşdirməkdir. Tədqiqat çərçivəsində şairin satirik və lirik şeirləri təhlil edilərək, XIX əsrin ictimai-siyasi hadisələrinin onun ədəbi mövqeyinə təsiri öyrəniləcəkdir. Eyni zamanda, Zakirin Qarabağla bağlı fikirləri, onun bu ideologiyanın formalaşmasında rolu qiymətləndiriləcəkdir. Nəticədə, şairin ədəbi irsinin müasir dövrdə Qarabağ məfkurəsinin formalaşması, qorunması və təbliği baxımından əhəmiyyəti müəyyən ediləcəkdir.

**Tədqiqat sualı:**

Qasım bəy Zakirin yaradıcılığında Qarabağ məfkurəsi hansı ideya və motivlərlə əks olunmuşdur və onun əsərləri XIX əsr ictimai-siyasi kontekstdə bu məfkurənin formalaşmasına necə təsir göstərmişdir?

**Metodologiya**

Bu tədqiqat Qasım bəy Zakirin yaradıcılığında Qarabağ məfkurəsinin əks olunma xüsusiyyətlərini araşdırmaq məqsədini daşıyır. Araşdırmada əsasən keyfiyyət metodlarından istifadə edilmiş, mənbə kimi Zakirin əsərləri, onların məzmun və üslub xüsusiyyətləri, eləcə də mövcud elmi ədəbiyyat nəzərdən keçirilmişdir.

Tədqiqatın aparılması üçün aşağıdakı metodlardan istifadə olunmuşdur:

1.**Mənbəşünaslıq təhlili** – Qasım bəy Zakirin əsərləri toplanaraq onların məzmun və ideya xüsusiyyətləri araşdırılmışdır. Əsərlərdə Qarabağ məfkurəsinin necə əks olunduğu və hansı poetik vasitələrlə ifadə edildiyi müəyyən edilmişdir.

2.**Tarixi-konseptual yanaşma** – XIX əsrin ictimai-siyasi hadisələri kontekstində Zakirin yaradıcılığı təhlil olunmuş və həmin dövrdə Qarabağ məfkurəsinin formalaşmasına təsir edən amillər araşdırılmışdır.

3.**Ədəbi-tənqidi təhlil** – Zakirin əsərlərində ictimai tənqid, vətənpərvərlik və milli ruh kimi motivlər müəyyən edilmiş, onların ideoloji və bədii aspektləri təhlil edilmişdir.

**Ədəbiyyata baxış:**

**Qasım bəy Zakir və Qarabağ ictimai mühiti**

Qasım bəy Zakir 1784-cü ildə Şuşa şəhərində doğulmuşdur. Onun əsli Qarabağda məşhur olan Cavanşirlər nəslindəndir. Ulu babası Kazım ağa Şuşa şəhərinin əsasını qoyan Pənah xanın doğma qardaşıdır (Qasımzadə,1974). Zakir ilk təhsilini Şuşada mollaxanada almış, ərəb, fars dillərini öyrənmişdir. Bu dilləri bilməsi ona Yaxın Şərqin Firdovsi, Nizami, Sədi, Hafiz kimi məşhur söz ustadlarının əsərləri ilə tanış olmaq imkanı vermişdir. Zakir mollaxanada oxuduğu illərdə adları çəkilən sənətkarların bədii irsini oxuyub öyrənmişdir. Zakir müasirləri arasında da dərin hörmət və böyük nüfuz qazanmışdır (Qayıbov,1986) Azərbaycanın Mirzə Fətəli Axundzadə, İsmayıl bəy Qutqaşınlı, Baba bəy Şakir, Xurşidbanu Natəvan kimi tanınmış ziyalıları, habelə gürcü knyazı İliko Orbeliani, Bakı general-qubernatoru Mixail Kolyubakin onun məktublaşdığı, əlaqə saxladığı məşhur şəxsiyyətlər idi (Köçərli, 1913). Zakirin satiraları əsas etibarilə çar hakimləri və çarizmin müstəmləkəçi qanun və qaydaları əleyhinə çevrilmişdir.

Qarabağda, yaşıl bağlar, sıx ormanlar diyarı, Sarıcalıda dünyaya göz açan Qasım bəy uşaqlıq və gənclik illərini o dövrün elm, sənət, musiqi mərkəzi Şuşada keçirmişdir (Fərəcov,2014). O, mədrəsə təhsili almış, ərəb və fars dillərini öyrənmiş, dövrünün elmlərini dərindən mənimsəmişdir. Düzlük, doğruçuluq, həqiqətpərəstliyinə görə hamı onu sevmişdir (Kərimov,2013). Yalan danışanlara, hiylə, kələk işlədənlərə, saxtakarlıq edənlərə qarşı şair həmişə amansız olmuşdur. Elə bu keyfiyyətlərinə görə şairin ata qohumlarından olan Qarabağ xanı Mehdiqulu xan ona Sarıcalının yanındakı Xındırıstan kəndini bağışlamışdır (Məmmədov, 1984). Qasım bəy 20 evdən ibarət bu kiçik kəndin gəliri ilə dolanmış, sadə bir kəndli kimi ömür sürmüşdür.

O zaman Qarabağ bəylərinin bir hissəsi gecə-gündüz vaxtlarını eyş-işrətdə keçirib rəiyyətin, rəncbərin hesabına yaşayır və zəhmətkeş xalqla ədalətsiz rəftar edirdilər (Sultanlı vb,1960). Zakir isə rəiyyətlə birlikdə yer əkər, bağ becərər, qoyun qırxar, bir süfrədə çörək yeyər, onların dərdlərinə şərik olardı. Zakirin kəndlilərlə dil bir olması, bəzi məsələlərdə onları ayıltması yerli bəylərin mənafeyinə toxunurdu (Kərimov, 2013). Buna görə də illər ötdükcə onun düşmənləri artırdı. Qarabağın tanınmış bəylərindən olub, eyni zamanda şairlik edən Cəfərqulu xan Nəva, gününü yaltaqlıqla,

qulluqbazlıqla keçirən Hüseyn bəy şairə barışmaz düşmən münasibəti bəsləyirdilər. Zakir əvvəllər Cəfərqulu xanla yaxın olmuş, lakin bir müddətdən sonra onun yaramaz hərəkətlərini görüb ondan üz döndərmişdi (Məmmədova, 2023). O, əsərlərində Cəfərqulu xanın zəhmətkeş kəndliləri incitdiyini, öz mənafeyi və nəfsi xatirinə bir çox ocaqları söndürdüyünü dəfələrlə yazıb göstərmiş, murdar əxlaqını tənqid etmişdir. Şairin düşmənləri onu dolaşdırmaq üçün tədbirlər düşünür, fürsət axtarırdılar. Onlar Zakirin qardaşı oğlu Behbudun qaçaqçılıq etdiyini və rəsmi dairələrdə gözdən düşmüş kürəkəni Əli bəy Fuladovla yaxın əlaqə saxladığı barədə hökumət dairələrinə xəbərçilik edirdilər (Yaqubqızı, 2023). Zakirin qardaşı oğlu Rüstəm bəyin günahsız həbsə alınması və öldürülməsi, onun qardaşı Behbudu qaçaqçılıq etməyə və yerli çar məmurlarından intiqam almağa cəsarətləndirmişdi (Yaqubqızı, 2023). Bu işin yaxşı nəticə verməyəcəyini görən şair müxtəlif yollarla Behbudu qaçaqçılıqdan çəkindirməyə çalışmış, lakin buna müvəffəq olmamışdı. 1849-cu ilin oktyabr ayında Şuşa vilayətinin rəisi Tarxan Mauravov böyük bir dəstə ilə Zakirin yaşadığı Xındırıstan kəndinə basqın edib, qoca şairi ailəsi ilə birlikdə həbsə alır (Baxşəliyev,1990). Bu dəstədə Zakirə düşmən münasibəti bəsləyən bir çox Qarabağ bəyləri, o cümlədən Cəfərqulu xan da var idi. Çar üsul-idarəsinin nökərləri şairlə kobud rəftar edib, ona əziyyət verirdilər. Behbudun çar məmurlarını və polis nəfərlərini təqib etməsini və bəzilərini öldürməsini bəhanə edərək, bu işdə Zakiri təqsirləndirirdilər (Mümtaz, 1925). Lakin çar hakimləri şairin xalq arasında hörmət və nüfuzu olduğunu nəzərə alaraq, onu və yaxın qohumlarını açıq mühakimə etməkdən çəkinmişlər. Zaqafqaziya mülki idarə rəisi qaçaq Behbudla və Zakirlə əlaqədar adamların cəzalandırılması haqqında Qafqaz canişininə raportunda yazırdı: "Altmış yaşlı Qasım bəy Əli bəy oğlu ciddi polis nəzarəti altında saxlanılmaq şərtilə Bakıya sürgün olunsun, ailəsi isə onunla birlikdə oraya getməyə məcbur edilməsin; iyirmi üç yaşlı Nəcəfqulu bəy, iyirmi yaşlı qohumu İsgəndər bəy Əli bəy oğlu, hərəsi tək-tək üç il müddətinə Rusiyanın daxili vilayətlərinə sürgün edilsinlər; həm də sürgün xərcləri onların öz hesabına olmalıdır (Baxşəliyev,1990). Behbudun anası və səkkiz yaşlı kiçik qardaşı Mustafa yaşadıqları yerdə qalsınlar". Şair belə bir ədalətsiz hökm haqqında Qafqaz canişininə və Şamaxı vilayət rəisinə şikayət yazsa da, xahişi rədd edilir. Hələ bunlar az imiş kimi satqın bəylər vasitəsi ilə Zakirin ailə üzvlərinin başına olmazın oyunlar açırlar. Zakirin başına gələn müsibətlər, özünün Bakıya sürgün edilməsi, qardaşı oğlu Behbudun tutulub vəhşicəsinə öldürülməsi, ailəsinin dağılması şairin yenilməz vüqarını sarsıda bilmir. Lakin böyük mərdliklə müsibətlərə sinə gərmiş şair kömək üçün yaxın dostlarına, elmə, mədəniyyətə qiymət verən bəzi vəzifəli adamlara müraciət etmiş, nahaq yerə şərlə düşdüyünü məktub və ərizələr vasitəsilə onlara bildirmişdir (Mümtaz, 1925). O, həyatının ağır günlərində M.F.Axundov, Qutqaşınlı, Şamaxı vilayətinin rəisi M.P.Kolyubakin kimi şəxsiyyətlərə müraciət etmişdir. 1857-ci ildə Şuşa şəhərində vəfat etmiş və orada Mirzə Həsən qəbiristanlığında dəfn olunmuşdur.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 334-346*

**Qasım bəy zakirin lirik və satirik şeirlərində Qarabağ toponimi**

Mirzə Fətəliyə göndərdiyi **"Piranəsərlikdə Çərxi-Kəcrəfdat"** adlı mənzum məktubunda Qasım bəy Zakirin Mirz biridir və onun yaradıcılığında Qarabağ məfkurəsinin nümunələrdən biridir. Şeir Zakirin çətin həyat şəraitindən, haqsızlıqlardan və Qarabağda qarşılaşdığı ədalətsizliklərdən bəhs edir (Hüseynova, 2023). Şair "piranəsərlik" (yaşlılıq, qocalıq) dövründə çətinliklər yaşadığını və onu vətəndən didərgin salan zalım dövrə (zamanın ədalətsizliyinə) şikayətləndiyini bildirir. Bu şikayət onun təkcə şəxsi dərdləri deyil, həm də cəmiyyətin içindəki haqsızlıq və zülmün ifadəsidir. Bu şeir Qasım bəy Zakirin yalnız şəxsi çətinliklərini deyil, həm də Qarabağdakı sosial vəziyyəti təsvir edir (Hüseynova, 2023). O, dövrün haqsızlıqlarına qarşı çıxır, zalım hökmdarları və nadan insanları tənqid edir. Şeirdə pessimizm və ümidsizlik hiss edilsə də, eyni zamanda Allahın ədalətinə ümid də var ("Allaha pənah"). Zakir bu şeirlə öz dövrünün ictimai-siyasi haqsızlıqlarına qarşı bir şikayət səsləndirir və bu, onun yaradıcılığının əsas xüsusiyyətlərindən biridir.

Piranəsərlikdə çərxi-kəcrəftar
Eylədi vətəndən dərbədər məni.
Neyləmişəm, bilməm, dövri-zalimə,
İncidir düşəndə bu qədər məni.
Qarabağ mülkündə mən bəxti siyah
Bir ağ gün görmədim, Allaha pənah,
Saldı bəlalərə bicürmü günah
Bir neçə müfsidü töxmi-xər məni.

**"Gözüm yolda qaldı, könül intizar"** başqa bir şerində Qasım bəy zakir yenə M.F.Axundzadəyə üz tutaraq,yazdığı bu şeir şairin öz dostuna ünvanladığı səmimi və nisgilli müraciətdir. Şair dostu Mirzə Fətəli Axundzadədən məktub gözlədiyini, lakin cavab ala bilmədiyini bildirir. Bu gözlənti və intizar hissləri ilk misralardan etibarən oxucuya çatdırılır. Şeir əsasən ayrılıq, gözləmə və dostluq münasibətləri üzərində qurulub (Kazımoğlu vb,2023). Zakir Axundzadəyə dərin hörmət bəslədiyini və onun cavabına böyük önəm verdiyini ifadə edir. Bundan əlavə, "iki əsir" ifadəsi şairin və onun kimilərin çar hökumətinin idarəçiliyi altında sıxıntılar yaşadığını göstərir. O, dostundan maddi və ya siyasi kömək gözləməsə də, heç olmasa bir məktubla təsəlli tapmaq istəyir. Bu şeir Zakirin dostuna ünvanladığı nisgilli, gözləmə dolu müraciətidir (Hüseynova, 2023). O, yalnız məktub və xəbər gözləməklə kifayətlənmir, həm də özünün və Qarabağda yaşayan digər ziyalıların vəziyyətini ifadə edir. Şeirdə dostluq, nisgil və cəmiyyətin çətinlikləri ilə bağlı dərin mənalar gizlənir.

Gözüm yolda qaldı, könül intizar,
Gəlmədi cavabi-naməlor səndən.
Bir aydan artıqdır gedib uşaqlar,
Yetişmədi bizə bir xəbər səndən.

Tutub damənini son tək əmirin,
Təvəqqöün eylər iki əsirin,
Qarabağ mülkündə bir mərdi-pirin
Təmonnası budur, taci-sər, səndən!

**Qarabağ qazisi"** adlı satirik şeirdə şəriət məhkəmələrinin iç üzü açılıb göstərilmiş, oradakı özbaşınalıq, tipik bir qazinin mənfi sifətləri ifşa edilmişdir (İsmayılova, 2023) Əlbəttə, Zakir dövründə nüfuzlu qazini satira atəşinə tutmaq o qedər də asan iş deyildi. Şair bunu başa düşürdü. O, bedii təzaddan istifadə edərək qazinin sözü ilə əməli arasındakı ziddiyyətləri aşkar edir, serrast ifadolərlə məqsədini oxucuya çatdırır (Teymuroğlu, 2007). Zakir qazini ədalətlə iş görməyə çağırırdı. Söz yoxdur ki, Zakirin qazi haqqında bəslədiyi arzu onun yaradıcılığının zəif cəhətlərindəndir, zaikr dərk edə bilməmişdi ki, istismarçı siniflərə xidmət edən qazi nə qədər mərhəmətli, insaflı olsa da, yenə "əhli-vilayətin qəminə" qala bilməz, dövlətli ağaları qoruyub zəhmətkeş xalqa xidmət ede bilməz.

Eyləyibdir yenə, mən hiç nə bilməm, qazi,
Xəlq arasında olubdur belə mülzəm qazi.
Füqəra dövri-sərayində besani-halə,
Nəqdi-ehsani Qarabağə çü şəbnəm qazi.
Dəxi divani-rəiyyət belə getso qalmaz,
Bu Qarabağ edər cümlə mükərrəm qazi.

Qasım bəy Zakirin Mirzə Fətəli Axundzadəyə məktub şəklində yazılmış **"Vilayətin məğşuşluğu haqqında"** adlı satirik şeiri XIX əsrin ortalarında Qarabağda mövcud olan sosial-siyasi qarışıqlığı, ədalətsizliyi, rüşvətxorluğu və qanunsuzluğu tənqid edən güclü bir əsərdir (Hüseynova, 2023). Şeir həm ictimai narazılığı əks etdirir, həm də yazıldığı dövrdə baş verən ictimai-siyasi proseslərin poetik salnaməsi rolunu oynayır. Şeirdə əsas mövzu Qarabağda hökm sürən anarxiya, oğurluq, haqsızlıq və özbaşınalığın tənqididir (Kazımoğlu vb,2023). Şair vilayətin əvvəlki dövrlərdə daha yaxşı idarə olunduğunu xatırladaraq, yeni dövrün özbaşınalığını, qanunsuzluğunu və idarəçilərin zəifliyini vurğulayır. O, əxlaqi və sosial dəyərlərin pozulmasından, qanunsuzluğun cəmiyyəti əhatə etməsindən dərin narahatlıq duyur (İsmayılova, 2023). Əsərin əsas ideyası odur ki, cəmiyyətdə ədalət və nizam-intizam yoxdursa, o cəmiyyət xaosa sürüklənir. Şair bunu Qarabağ vilayətindəki real vəziyyətlə göstərir və dövrünün idarəçilərini, xüsusən də zəif hakimiyyəti sərt şəkildə tənqid edir. Zakir cəmiyyətin naqisliklərini, idarəçilərin zəifliyini açıq-aşkar göstərir və bunu sarkazmla ifadə edir (Teymuroğlu, 2007). O, hökumətin acizliyini, bəylərin və din xadimlərinin riyakarlığını, oğurluq və talançılığın geniş yayılmasını kəskin şəkildə tənqid edir.Şair vilayətin məğşuşluğunu (qarışıqlığını) təsvir edərkən “çatdadı çanaq”, “papaq qarışıb”, “şorta-şortdu” kimi ifadələrlə vəziyyətin pisləşdiyini vurğulayır. Bu

metaforalar Qarabağın o zamankı xaos içində olduğunu oxucuya hiss etdirir (Fərəcov,2014). Şair oğruları qarıncaya bənzədərək onların gecə-gündüz oğurluqla məşğul olduqlarını göstərir. Bu bənzətmə cəmiyyətin necə bir təhlükəli vəziyyətdə olduğunu təsvir edir. Zakir şeir boyu xalq deyimlərinə, atalar sözlərinə yaxın ifadələrdən istifadə edir ki, bu da onun poeziyasını xalq ruhuna yaxınlaşdırır. Şeirdə konkret adlar çəkilərək dövrün bəzi məmurları və icraçılarının acizliyi və rüşvətxorluğu açıq şəkildə tənqid olunur (Çəmənli, 2014). Şairin "Ədalətdə yoxdur bir kəsrü kəmi" misrası isə ümumiyyətlə cəmiyyətin haqq-ədalətdən uzaqlaşdığını göstərir. Burada həm məhəllə idarəçiləri, həm də din xadimləri tənqid olunur. Şairin **"Alimdə əməl yox, bəydə ədalət"** deməsi isə cəmiyyətin iki əsas dayağı sayılan savadlı insanların və hakimiyyətin mənəvi çöküşünü göstərir. Qasım bəy Zakirin bu əsəri XIX əsr Qarabağında, xüsusən də Rusiya imperiyasının regionda möhkəmlənməsi və yerli idarəçiliyin dəyişməsi dövründə yazılmışdır. Bu dövr Qarabağda feodal pərakəndəliyinin, rüşvətxorluğun və qanunsuzluğun geniş yayıldığı bir zamana təsadüf edir. Əsər həm də bu qarışıqlığın sadə xalqı necə əzab içində saxladığını göstərir.

Xəbər alsan bu vilanın əhvalın,
Bir özgədír keyfiyyəti-Qarabağ.
Haqdi, bundan əqdəm görübsən sən də,
Hanı o qaidə, o qanun səyaq?

Qarabağda nə day qaldı, nə dana,
Bu gün, sabah qaçar hərə bir yana;
Tənbih etmək ilə Xındırıstana,
Xub saldı nizamə ölkəni qoçaq.

Birindən şikayət edəsən əger,
Danışmağa qoymaz, sözünü kəsər,
Qardaş malı kimi ortadan bölər,
Murovlar olublar oğruya ortaq.

Görsən tanımazsan Yarımsaqqalı,
Çıxıb əndazədən dövlətü malı;
Xandəmirov çaldı, çapdı mahalı,
O ki, tutub özün keçəl qurumsaq.

Gərçi vilayətdə çox idi əhval,
Müyəssər olmadı şərh edim əlhal;
Bir parasın yazıb elədim irsal,
Bu şərt ilə nə diş bilsin, nə dodaq.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 334-346*

**Qarabağ içrə ağ gün görmədim, mən tirəbəxt oldum,**
**Anınçın xatirim ol qövmi-birəhmi qətil istər.**-Bu misralarda şairin Qarabağa olan dərin bağlılığı və eyni zamanda yaşadığı ədalətsizliyə qarşı üsyanı hiss olunur. "Tirəbəxt" ifadəsi ilə öz taleyinin qaranlıq olduğunu bildirən şair, ictimai ədalətsizlikdən və xalqının haqsızlığa məruz qalmasından şikayətlənir. "Qövmi-birəhmi qətil istər" misrası, haqsızlığın cəzasız qalmamalı olduğunu vurğulayır. Bu, şairin poetik üslubunda emosional təsirin güclü olmasını göstərir.
**Qarabağ əşxası ycksər yağıdır,**
**Ovvəlden axıra zülm ocağıdır,**
**Bir gecodə canavarlar dağıdır,**
**Olmasa kəlləyə çobandan mədəd.** -Bu parçada şair Qarabağdakı sosial-siyasi vəziyyəti sərt tənqid edir. "Zülm ocağı" ifadəsi burada əsas məqamdır və Qarabağda hökm sürən ədalətsizlik və zülmə işarə edir. Canavar metaforası zalım hökmdarları və onların dəhşətli idarəçiliyini təsvir etmək üçün istifadə olunur. Şairin üslubu açıq və sərtdir.
**Sərxeyl ikən yeksər qaldıq ayaqda,**
**İşlərimiz keçir yaman sayaqda,**
**Nə tirəbəxt olduq bu Qarabağda,**
**Talei-meymuni görən canımız!**-Bu misralarda Qarabağın tarixi faciələri və şairin bədbəxt taleyi vurğulanır. "Talei-meymuni" ifadəsi, burada şairin öz taleyini mənfi bir metafora ilə təsvir etməsi baxımından diqqət çəkir. Burada satirik və kədərli bir ton var.
**Var mülki-Qarabağda çox dun köpək oğlu,**
**Haşa kim, ola bir bele məlun köpək oğlu!**
**Sən səngi-cəfabirlə mənim könlümü yıxdın,**
**Yıxsın evini qadiri-biçun, köpək oğlu!**
-Burada şair açıq şəkildə müəyyən bir zümrənin haqsızlıqlarını və zülmkar idarəçiliyini tənqid edir. "Köpək oğlu" ifadəsi sərt və satirik bir tənqid formasıdır. Şair, mənəvi dəyərlərin pozulmasını və ədalətin olmamasını vurğulayır.
**Dəyib bir-birinə yeksər Qarabağ,**
**Minnət çəkər idim sürçəndə ayaq;**
**İstədim həcv edim bir özgə sayaq,**
**Amma yenə mane oldu ehtiyat.**-Şair Qarabağda baş verən qarışıqlığı və nizamsızlığı təsvir edir. "Minnət çəkər idim sürçəndə ayaq" misrası, onun bu hadisələrə qarşı narahatlığını və ehtiyatlı davranmaq məcburiyyətində olduğunu göstərir. Şair həcv janrından istifadə etməyə tərəddüd etdiyini bildirir.
**İş keçsə bu surət bir müddət əgər,**
**Qalmaz Qarabağda şenlikdən əsər;**
**Eşidib əhvalı, bilmənəm məgər**
**Bir binagüzarlıq edə Neydqart.**

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 334-346*

**Naxçıvan sağında, Şirvan solunda,**
**Hər vilayət təriqində, yolunda;**
**Men bilirəm Xındırıstan kolunda**
**Bir ölkədən olmaz iki deputat.**
- Bu şeirdə Qarabağın gələcəyi ilə bağlı bədbinlik aşılanır. "Şenlikdən əsər qalmaz" ifadəsi ilə şair bölgənin əvvəlki firavanlığını itirdiyini bildirir. Burada tarixi kontekstə də işarə var.
**Mən böylə zati sərzənişi-ammə nə eyləyim,**
**Məcmui-qəbahətdir dişisi, erkəgi ləvənd.**
**Fərxəndə bəxti var, kimin... səxti var.**
**Olmuş odur ki, nisfi-Qarabağ mötəməd.**-Şair Qarabağın mənəvi tənəzzülünü sərt bir dillə ifadə edir. "Məcmui-qəbahətdir" ifadəsi ilə o, cəmiyyətin əxlaqi çöküşünü təsvir edir. Bu misralar həcv janrının güclü nümunəsidir.
**Hərarət çeşmi-kəmbinayə nöqsan olduğun bilmiş,**
**Gələr payız Qarabağə, qaçar Əlbürsə yay, knyaz!**
**Üç ay qış cövrü zülmünə, könül səbr eylə,**
**Papağın fırla ha gəldi yaz olacaq ustu pay, knyaz.**-Burada şair ilin fəsilləri ilə siyasi və sosial hadisələri metaforik şəkildə təsvir edir. Payızın gəlişi ilə ədalətsizliyin artması və yazın ümidlə gözlənilməsi təsvir olunur.
**Tutmuşdu Qarabağı zərü simü dəvabı,**
**Tapmaz minə bir yabı gedə qonşuya hala.**
**Divan deme, hərgiz buna kim, afəti-candır,**
**Mən söyləmədim, nola ki, məşhuri-cahandır**.-Şair Qarabağın zənginliklərinin talan edilməsindən bəhs edir. "Divan deme" misrası ilə o, ədalətsiz idarəçiliyi açıq şəkildə tənqid edir.
**Xeyri başına dəgsin, onun atəşi-şərri**
**Yandırdı neçə bargəhi-pirü cəvanı.**
**Yox bir deyən, ey varisi-məcmui-Qarabağ,**
**Səndə ağalıq qaidəsi, adəti hanı?**-Şair Qarabağda baş verən haqsızlıqları sərt bir dillə təsvir edir. "Ağalıq qaydəsi hanı?" sualı ilə o, ədalətin itməsinə diqqət çəkir.
**Qurtar üzündən əhli-Qərabağın, ey könül!**
**Get sərzəmini-Bakidə bir qədər keyfe bax!**
**Səngi-sitəmdən olmadın eymən bu Şuşada,**
**Eylər səfər Şamaxiyə, şəhri-lətife bax!**-Burada şair Qarabağı tərk edib Bakıya getməyi bir çıxış yolu kimi göstərir. "Şamaxiyə, şəhri-lətife bax" misrası ilə o, Qarabağla digər şəhərləri müqayisə edir.
**Qarabağ atlası dostəbədəstə,**
**Top almaqdır sənətləri peyvəstə;**
**Döyüşdə at salıb Osmanlı üstə,**

**Cərgələrin edə pərişan gorək!** - Burada Qarabağ xalqının döyüş ruhu və Osmanlıya qarşı mübarizəsi təsvir edilir. Şair milli ruhun qorunmasına diqqət çəkir.

**Mene tutdun bir iş ta var dünya qalacaq baqi,**
**Eşidənlər hamı kim, deycəklər, mərhəba, knyaz!**
**Qarabağ içrə bu karin salıbdır nur gün nisbot,**
**Həmişə bəxtin olsun gün kimi, ey məhliqa knyaz!**

-Şair burada Qarabağın taleyi ilə bağlı ümumi bir şərh verir və öz təcrübələrini qeyd edir. "Həmişə bəxtin olsun gün kimi" ifadəsi optimist bir not əlavə edir.

**Şahbazi-dəri-dövələt nə bilir ovei-həziz,**
**Götürər çənginə yüz tayiri-gühsar olsun!**
**Eylədi xuldi-bərin Tiflisi feyzi-nəzərin,**
**Bas Qarabağə qedəm, məskəni-gülzar olsun!**

-Bu misralarda şair Qarabağın fəlakətlərini təsvir etməklə yanaşı, bölgənin gözəlliyini də vurğulayır. "Məskəni-gülzar olsun" ifadəsi gələcəyə ümid bəslədiyini göstərir.

**Müzakirə**

Qasım bəy Zakirin yaradıcılığı XIX əsr Azərbaycan ədəbiyyatında Qarabağ məfkurəsinin formalaşması və inkişafında mühüm rol oynamışdır (Kərimov,2013). Onun satirik və fəlsəfi şeirləri, ictimai-siyasi məsələlərə yönəlmiş tənqidi baxışları Qarabağın yalnız coğrafi məkan yox, həm də milli ideалların rəmzi kimi qəbul edilməsinə xidmət etmişdir (Hüseynova, 2023). O, dövrünün ictimai-siyasi hadisələrini dərin müşahidə edərək, Qarabağda baş verən sosial problemləri, ədalətsizlikləri və feodal quruluşunun mənfi cəhətlərini tənqid etmişdir (Yaqubqızı, 2023). Zakirin yaradıcılığı həm də milli düşüncənin formalaşmasına təsiri baxımından əhəmiyyətlidir. Ədəbiyyat icmalında vurğulanan məqamlar göstərir ki, şairin əsərləri Qarabağla bağlı milli kimliyi və sosial şüuru əks etdirən mühüm qaynaqlardan biridir (Məmmədova, 2023). Onun satiraları həm fərdi nöqsanları, həm də bütövlükdə ictimai quruluşun qüsurlarını açıq şəkildə tənqid edirdi. Bu baxımdan, onun yaradıcılığında Qarabağ coğrafi məkan olmaqla yanaşı, həm də ədəbi və ideoloji mübarizə simvolu kimi təqdim edilir. Zakirin əsərlərində Qarabağın sosial-iqtisadi vəziyyəti, əhalinin güzəranı, məmurların ədalətsizliyi və cəmiyyətin naqisliklərі açıq şəkildə tənqid edilir (Kərimov,2013). O, dövrün ziyalıları üçün milli şüurun formalaşmasında mühüm rol oynayan bir sənətkar olmuşdur. Onun fikirlərinin müasir dövrdə də aktual qalması, Qarabağ məfkurəsinin ədəbiyyatda və ictimai düşüncədə davamlı bir xətt kimi izlənilə biləcəyini sübut edir (Fərəcov,2014). Müzakirə əsnasında bu məqamların üzərində daha ətraflı dayanaraq, Zakirin satirik poeziyasının və Qarabağ məfkurəsinin bugünkü əhəmiyyəti barədə fikir yürütmək mümkündür (Hüseynova, 2023). Onun yaradıcılığını tənqidi və milli-mənəvi dəyərləri qorumaq və gələcək nəsillərə ötürmək baxımından əhəmiyyətini vurğulamaq lazımdır (Yaqubqızı, 2023). Tədqiqat zamanı əldə olunan nəticələr göstərir ki, Zakirin poeziyasında Qarabağ məfkurəsi əsasən, vətən sevgisi, sosial ədalətsizliklərin tənqidi və milli kimliyin qorunması mövzuları ətrafın-

da qurulmuşdur. Onun şeirlərində Qarabağın tarixi taleyi, sosial problemləri və dövrün siyasi hadisələri ilə bağlı düşüncələri bədii forma almışdır (Məmmədova, 2023). Ədəbi tədqiqatlar da göstərir ki, XIX əsrin ictimai-siyasi şəraiti Zakirin yaradıcılığında mühüm rol oynamış və onun əsərlərində Qarabağ toplonimi milli şüurun daşıyıcısı kimi iz qoymuşdur (Fərəcov,2014). Bununla yanaşı, tədqiqat göstərir ki, Zakirin əsərlərində ifadə olunan Qarabağ ideyaları sonrakı dövrlərdə Azərbaycan ədəbiyyatına ciddi təsir etmiş, xüsusilə XX əsrin əvvəlində milli azadlıq hərəkatının ideoloji əsaslarından biri kimi qəbul edilmişdir (Kərimov,2013). Ədəbiyyat araşdırmaları göstərir ki, Zakirin tənqidi satirası və vətənpərvərlik motivləri onun poeziyasını müasir dövr üçün də aktual edir. Müasir tədqiqatçılar onun şeirlərini Qarabağın tarixi-siyasi vəziyyəti ilə əlaqələndirərək, bu poetik nümunələrin yalnız ədəbiyyat və poeziya nümunələri kimi qiymətləndirmir, həm də ictimai fikir üçün dəyərli mənbə olduğunu vurğulayırlar (Yaqubqızı, 2023).

Qasım bəy Zakirin yaradıcılığında Qarabağ məfkurəsi dərin fəlsəfi və bədii məzmun daşıyır. O, öz dövrünün sosial-siyasi problemlərini işıqlandırmaqla yanaşı, gələcək nəsillər üçün də bir vətənpərvərlik və milli kimlik simvoluna çevrilmişdir. Zakirin əsərlərinin çağdaş dövrdə yenidən araşdırılması və təhlil edilməsi onun ədəbi və ideoloji irsinin dəyərini daha da artırır (Məmmədova, 2023).

**Nəticə:** Bu tədqiqatın nəticələri göstərir ki, Qasım bəy Zakirin yaradıcılığı XIX əsr Azərbaycan ədəbiyyatında Qarabağ məfkurəsinin formalaşması və inkişafında mühüm rol oynamışdır. Onun satirik və fəlsəfi şeirləri, ictimai-siyasi məsələlərə yönəlmiş tənqidi baxışları Qarabağı coğrafi məkan və milli idealların rəmzi kimi qəbul edilməsinə xidmət etmişdir. Tədqiqatın nəticələri göstərir ki, Zakirin poeziyasında Qarabağ məfkurəsi əsasən vətən sevgisi, sosial ədalətsizliklərin tənqidi və milli kimliyin qorunması mövzuları ətrafında qurulmuşdur. Onun şeirlərində Qarabağın tarixi taleyi, sosial problemləri və dövrün siyasi hadisələri ilə bağlı düşüncələri bədii forma almışdır.

Nəticə olaraq qeyd etmək olar ki, Zakirin poeziyası təkcə dövrünün sosial problemlərini tənqid etməklə qalmamış, həm də Qarabağın milli ruhunu qorumağa və gücləndirməyə xidmət etmişdir. Onun ədəbi irsi XIX əsrin mürəkkəb siyasi vəziyyətində Qarabağın ictimai və mədəni həyatını əks etdirmiş, həmçinin müasir dövrdə də Qarabağ ideologiyasının təbliği baxımından aktuallığını qorumaqdadır. Onun əsərləri Azərbaycan ədəbiyyatında milli özünüdərk və vətənpərvərlik kontekstində xüsusi əhəmiyyət kəsb edir. Zakirin poeziyasında milli kimlik, vətən sevgisi və ictimai ədalət motivləri dərin bədii ifadə tapmışdır. Şairin əsərləri XIX əsrin mürəkkəb siyasi vəziyyətində Qarabağın ictimai və mədəni həyatını əks etdirmiş, həmçinin müasir dövrdə də Qarabağ ideologiyasının təbliği baxımından aktuallığını qorumaqdadır. Onun ədəbi irsi Azərbaycan ədəbiyyatında milli özünüdərk və vətənpərvərlik kontekstində xüsusi əhəmiyyət kəsb edir.

**Ədəbiyyat siyahısı:**

1. Baxşəliyev, R. (1990, Noyabr 14). Klassik ideyaların yaşarılığı. *Azərbaycan müəllimi*.
2. Çəmənli, M. (2014, Avqust 2). Satirik şeirimizin bayraqdarı: Qasım bəy Zakir – 230. *525-ci qəzet*, 14.
3. Ə.Sultanlı, Ə.Mirəhmədov, K.Talıbzadə (1960) Azərbaycan ədəbiyyatı tarixi, 3 cilddə, I cild, XIX əsrin əvvəllərindən 1917-ci ilə qədər, cildin redaktorları:. Bakı: AzSSR EA nəşriyyatı, 1960.
4. Fərəcov, S. (2014, Avqust 27). Qasım bəy Zakirin maarifçi dünyagörüşü. *Mədəniyyət*, 15.
5. Feyzulla Qasımzadə (1974) XIX əsr Azərbaycan ədəbiyyatı tarixi, ali məktəblər üçün dərslik, işlə-nilmiş ikinci nəşri. Bakı: Maarif, 1974..
6. Hüseyn Əfəndi Qayıbov (1986) Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir. Bakı: Elm, 1986.
7. Hüseynov, S. (1984, Oktyabr 12). Zakirin əsərlərində adlar: Qasım bəy Zakir 200. *Azərbaycan müəllimi*.
8. Hüseynova, P. S. (2023). *Qasım bəy Zakirin XIX əsr ictimai satiranın, uşaq ədəbiyyatının yaranması və inkişafında rolu*. Azərbaycan dili və ədəbiyyat tədrisi, (276), 79-91. https://doi.org/10.48445/m5225-8417-3329-d
9. İsmayılova, Ə. Ş. (2023). *XIX əsr Azərbaycan mənsəvi yaradıcılığında Qasım bəy Zakir təmsillərinin mövqeyi*. AMEA M. Füzuli adına Əlyazmalar İnstitutu.
10. Kazımoğlu İ., Məmmədova, L., & Abdullayeva, N. (2023). *Firidun bəy Köçərli və Qarabağ ədəbi-mədəni mühiti: Respublika elmi konfransının materialları*. Elm və təhsil.
11. Kərimov, R. (2013). *Qasım bəy Zakir və müasirləri*. Bakı: Elm və Təhsil.
12. Köçərli, F. (1913). *Azərbaycan ədəbiyyatı* (İki cilddə). Bakı: Avrasiya Press, 2005
13. Məmmədov, N. (1984, Sentyabr 28). Zakir və XIX əsr satirik şeirimiz. *Ədəbiyyat və incəsənət*, 6.
14. Məmmədova, Ş. (2018). *Azərbaycan uşaq ədəbiyyatı antologiyası: 3 cilddə. I cild: Folklor və klassik uşaq poeziyası*. Bakı: ADPU.
15. Ramiz Teymuroğlu (2007) Qasım bəy Zakır irsinin tədqiqi. Bakı: Kooperasiya, 2007.
16. Raqub Kərimov (2013) Qasım bəy Zakir və müasirləri. Bakı: Elm və təhsil, 2013.
17. S.Mümtaz (1925) Azərbaycan ədəbiyyatı, 8-ci cild: Qasım bəy Zakir, tərt. ed. və ön söz Bakı: Kommunist, 1925.
18. Yaqubqızı, R. (2023, Avqust 15). Qasım bəy Zakir: satirik şeirlər, təmsillər müəllifi. *Respublika*, 9.

**Rəyçi: Filologiya elmləri üzrə fəlsəfə doktoru, dossent Sevinc Həmzəyeva**